Hekayə vaxtı

**FRENSİS SKOT FİTSCERALD**

# SEÇMƏ HEKAYƏLƏR

Tərcüməçi:
Qi Or El

qanun nəşriyyatı

FRANCIS SCOTT FITZGERALD

# THE BEST STORIES

Bu kitabda "Möhtəşəm Qetsbi" romanının müəllifi, Amerika ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri Frensis Skott Fitsceraldın seçmə hekayələri yer alıb.

"Qanun" nəşriyyatının yeni layihəsi "Hekayə vaxtı" adlanır. Amerikan düşüncə tarixində fırtına effekti yaradan yazarın hekayə yaradıcılığı ilə yaxından tanış olmaq üçün bu fürsəti əldən verməyin.

Xoş mütaliələr!

**Francis Scott Fitzgerald** **THE CURIOUS CASE OF BENJAMIN BUTTON**
**Frensis Skot Fitscerald** **BENJAMİN BATTONUN QƏRİBƏ ƏHVALATI**
Bakı, Qanun Nəşriyyatı, 2023, 304 səh.

Janr: fiction/hekayələr
Ölçü: 120x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 03.05.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Qi Or El |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektorlar: | Aytən Şamil,<br>Şəhla Yarıbəyli |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Yekaterina Klimova |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-616-5

© Qanun nəşriyyatı, 2023
© 1922 by Francis Scott Fitzgerald

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu"na ziddir.

# MÜNDƏRİCAT

Benjamin Battonun qəribə əhvalatı ............................ 6

Ağır sınaq ............................................................... 42

Baş və çiyinlər ......................................................... 51

Buz sarayı ............................................................... 86

Dəvənin dalı ............................................................ 122

Ədabaz Martin-Cons və “Uels şahzadəsi” ................ 159

İsti... soyuq qan ...................................................... 185

Küləyə düşmüş ailə ................................................. 206

Dəniz quldur u.......................................................... 232

Yenidən Babildə ...................................................... 275

# BENJAMİN BATTONUN QƏRİBƏ ƏHVALATI

## I

1860-cı ildə ev şəraitində doğulmaq adi bir şey hesab olunurdu. Amma indi eşitdiyimə görə, təbabət dahiləri ilk körpə çığırtısını dəbdəbəli xəstəxana mühitindən, ağrıkəsici vasitələrlə zəngin otaqlardan eşitməyə üstünlük verirlər. Cənab və xanım Rocer Battonlar 1860-cı ilin bir yay günü ilk övladlarının xəstəxanada doğulmağına qərar verəndə bu dəbi əlli il qabaqlamışdılar. Bu anaxronizmin[1] yazmağa hazırlaşdığım qəribə əhvalata dəxli olub-olmadığını heç vaxt heç kəs bilməyəcək.

Mən baş verənləri danışacağam, qiymət vermək sizlikdir.

Müharibədən əvvəl Baltimorda Rocer Batton ailəsinin ictimai və maliyyə cəhətdən tutduğu mövqeyə çoxu həsəd aparırdı. Battonların "Bu ailə" ilə də, "O ailə" ilə də əlaqəsi vardı və bu onlara hər bir cənublunun bildiyi kimi Konfederasiyada məskunlaşmış, fərdlərinin sayı kifayət qədər çox olan kübar cəmiyyətə üzv olmaq hüququ verirdi. Uşaq sahibi olmaq kimi qədim və gözəl ənənəni ilk

---

[1]Anaxronizm – bədii əsərdə keçmişi təsvir edərkən xronoloji dəqiqliyin bilmədən, yaxud bilərəkdən pozularaq başqa dövrün əlamətlərini əsərə gətirmək (red.)

dəfə sınaqdan keçirdikləri üçün cənab Batton həyəcanlıydı. Ümid edirdi ki, oğlu olacaq və onu Konnektikuta, Yeyl Kollecinə göndərmək imkanı əldə edəcək. Cənab Batton özü də bu ali məktəbdə oxumuş, dörd il ərzində bir qədər bayağı səslənən "Manjet" ləqəbiylə tanınmışdı.

Həmin möhtəşəm hadisənin baş verəcəyi sentyabr səhəri saat altıda narahatlıqla yerindən durub geyindi, qüsursuz, gözəl qalstukunu düzəltdi və Baltimorun küçələrini keçə-keçə xəstəxanaya yollandı. Bilmək istəyirdi, görəsən, gecə zülməti həyata yeni qədəm qoyan bir varlığı ağuşuna alıbmı?

"Ledi və Centlmenlər üçün Meriland Özəl Xəstəxanası"na təxminən yüz metr qalmış o, ailə həkimi Kinin yazılmamış peşə etikasına uyğun olaraq, bütün həkimlər kimi əllərini bir-birinə sürtərək pillələri düşdüyünü gördü. "Rocer Batton & Kompani" metal məmulatları pərakəndə satış şirkətinin prezidenti cənab Rocer Batton o gözəl dövrün cənublu centlmenlərindən fərqli olaraq daha az ləyaqət nümayiş etdirib, həkim Kinə tərəf qaçdı.

– Cənab Kin! – deyib çağırdı. – Ey, cənab Kin!

Həkim onu eşidib geri çevrildi. Yerində dayanıb yaxınlaşmağını gözlədi. Çatanda cənab Batton həkimin təbabət ciddiyyəti nümayiş etdirən üzündə qəribə ifadə gördü:

– Nə olub? – cənab Batton özünü yetirib tövşüyə-tövşüyə soruşdu. – Nə xəbər var? Necədir? Oğlandır? Nədir? Nə...

– Aydın danışın, – həkim Kin kəskin şəkildə cavab verdi. Bir az əsəbi görünürdü.

– Uşaq doğuldu, ya yox? – cənab Batton yalvarıcı tərzdə soruşdu.

Həkim Kin qaşqabağını salladı:

– Hə, əlbəttə. Güman edirəm, doğuldu... Müəyyən dərəcədə... – O, yenə cənab Battona qəribə nəzər saldı.

– Arvadımın vəziyyəti yaxşıdır?

– Bəli.

– Oğlandır, yoxsa qız?

– Bura baxın, – həkim Kin tamamilə özündən çıxıb qışqırdı. – Zəhmət olmasa, gedin, özünüz baxın... Biabırçılıqdır! – Həkim son kəlməni çımxıraraq, demək olar, birnəfəsə dedi, sonra üzünü çevirib deyindi: – Bu cür hadisələrin peşəkar nüfuzuma necə təsir edəcəyini təsəvvürünüzə gətirirsiniz? Bir də belə şey olsa, mən məhv oldum... Belə şey istənilən adamı məhv eləyər.

– Axı nə olub? – cənab Batton qorxaraq soruşdu. – Üçəm doğulub?

– Xeyr, üçəm deyil! – həkim acı-acı dedi. – Bir də ki, özünüz gedib baxa bilərsiniz. Ailəniz üçün də başqa həkim tapın. Siz dünyaya gələndə də, cavan oğlan, mən yanınızdaydım. Qırx il ailənizin həkimi olmuşam. Amma indi sizinlə mənimki qurtardı. Bundan sonra bir daha nə sizi, nə də ailə üzvlərinizi görmək istəyirəm. Salamat qalın!

Həkim kəskin hərəkətlə dönüb bir söz demədən yolun kənarında gözləyən faytona mindi, arxasına baxmadan çıxıb getdi.

Səkidə dayanmış Cənab Battonun heyrətdən bədəni əsirdi. Görəsən, hansı dəhşətli müsibət baş verib? Birdən "Ledi və Centlmenlər üçün Meriland Özəl Xəstəxanası"-na getmək həvəsini itirdi. Bir an sonra böyük çətinliklə pillələri qalxıb içəri keçməyə məcbur oldu.

Tibb bacısı alaqaranlıq zalda masa arxasında oturmuşdu. Cənab Batton utancaqlığını boğub ona yaxınlaşdı.

– Sabahınız xeyir, – deyən qız altdan-yuxarı lütfkarlıqla ona baxdı.

– Sabahınız xeyir. Mən... Mən cənab Battonam.

Bunu eşidən qızın üzündə əsl dəhşət ifadəsi göründü. Ayağa durub, az qala, zaldan qaçmaq istədi, lakin çətinliklə özünü saxladı.

– Uşağımı görmək istəyirəm, – cənab Batton dedi.

Tibb bacısı əsəbi halda, az qala, qışqıra-qışqıra:

– Hə, əlbəttə, – dedi. – Yuxarı qalxın. Birbaşa yuxarı qalxın. Gedin... Yuxarı!

Qız yolu göstərdi və cənab Batton soyuq tər içində tərəddüdlə ikinci mərtəbəyə qalxmağa başladı. Yuxarı mərtəbədə əlində ləyən olan başqa tibb bacısıyla rastlaşıb ona müraciət etdi:

– Mən cənab Battonam, – sözləri bir-birinə qoşmaq ona güclə müyəssər oldu. – Görmək istəyirdim öz...

Daranq! Ləyən yerə düşüb pilləkənə tərəf diyirləndi. Daranq! Daranq! Ləyən bu cənabın oyatdığı ümumi dəhşət mənzərəsində iştirak edirmiş kimi yavaş-yavaş aşağı endi.

– Uşağımı görmək istəyirəm, – cənab Batton, demək olar ki, çığıra-çığıra dedi. Artıq ağlını itirmək həddinə çatmışdı.

Daranq! Ləyən birinci mərtəbəyə çatdı. Tibb bacısı özünə nəzarəti bərpa edib, cənab Battona nifrət dolu nəzər saldı:

– Yaxşı, cənab Batton, – sakit səslə dedi. – Çox gözəl! Amma kaş bu səhər bizi nə hala saldığınızı biləydiniz.

Əməlli-başlı biabırçılıqdır! Xəstəxana bundan sonra heç vaxt nüfuz qazana bilməz...

– Tez olun! – cənab Batton boğuq səslə qışqırdı. – Səbrim tükəndi!

– Arxamca gəlin, cənab Batton.

Qızın arxasınca düşüb ağır-ağır addımladı. Uzun dəhlizin sonundakı, içərisindən müxtəlif cür inilti-fəryad səsi gələn otağa çatdılar... Bəli, sonralar belə otaqları "qışqıran otaq" adlandırırdılar. İçəri keçdilər.

Divarlar boyu beş-altı ağ minalı uşaq çarpayısı qoyulmuş, hamısının baş tərəfinə yarlıq asılmışdı.

– Yaxşı, – cənab Batton nəfəsi tutula-tutula soruşdu, – mənimki hansıdır?

– Odey, oradadır! – tibb bacısı cavab verdi.

Cənab Batton baxışlarını qızın barmaqla göstərdiyi tərəfə yönəltdi. Gördüyü mənzərə belə idi: qalın ağ adyala bürünmüş bir qoca çarpayıya güclə sığışıb oturmuşdu. Haradasa yetmiş yaşı olardı. Təkəmseyrək saçları, demək olar ki, ağ idi. Çənəsindən sallanmış kül rəngli saqqalı pəncərədən gələn mehin təsirindən yellənirdi. O, sönük baxışlarla altdan-yuxarı cənab Battona laqeyd nəzər saldı. Gözlərində çaşqınlıq görünürdü.

– Mən ağlımı itirmişəm? – qorxu hissi qəzəbə çevrilmiş Cənab Batton qışqırdı. – Bu sarsaq xəstəxana zarafatı nəyə lazımdır?

– Bu bizə zarafat kimi görünmür, – tibb bacısı ciddi şəkildə etiraz etdi. – Ağlınızı itirib-itirmədiyinizi də deyə bilmərəm. Bu isə, heç şübhəsiz, sizin uşağınızdır.

Cənab Battonun alnını soyuq tər basdı. Gözlərini yumdu. Sonra açıb yenə baxdı. Səhv etməmişdi. Qarşısındakı adamın yetmiş yaşı olardı... Yetmiş yaşlı uşaq...

Ayaqlarını içində oturduğu çarpayının kənarından sallamış uşaq...

Qoca bir müddət gah onun, gah da qızın üzünə baxdı, birdən titrək, yaşlı adamlara xas səslə soruşdu:

– Siz mənim atamsınız?

Cənab Battonla tibb bacısı səksəndi.

– Atacan, – qoca narazılıqla dedi, – xahiş eləyirəm, məni buradan apar... Ya da heç olmasa, onlara rahat yırğalanan kreslo ver, buraya qoysunlar.

– Tanrı xatirinə, haradan gəlmisən? Kimsən? – cənab Batton dəli kimi qışqırdı.

– Kim olduğumu dəqiq deyə bilmərəm, – sızıltılı səs cavab verdi, – cəmi bir neçə saatdır doğulmuşam... Soyadımsa, şübhəsiz ki, Battondur.

– Yalan danışırsan! Sən fırıldaqçısan!

Qoca bezgin halda tibb bacısına baxdı:

– Heç yeni doğulmuş uşağı da belə qarşılayarlar?! – zəif səslə şikayətləndi. – Niyə ona səhv elədiyini demirsiniz?

– Siz yanılırsınız, cənab Batton, – tibb bacısı ciddiyyətlə dedi. – Bu sizin uşağınızdır. Başqa yolunuz yoxdur. Onu vaxt itirmədən evə aparmağınızı xahiş etmək məcburiyyətindəyik... Elə bu gün...

– Evə? – cənab Batton inamsızlıqla dilləndi.

– Bəli. Onu burada saxlaya bilmərik. Doğrudan, saxlaya bilmərik.

– Mənsə buna, doğrudan, şad olardım, – qoca zarıdı. – Bura sakitlik sevən oğlan üçün pis yerdir. Bu çığırtıya, iniltiyə görə gözümü yuma da bilməmişəm... Yeməyə bir şey istədim, – bu yerdə onun səsi kəskin etiraz ifadə etdi, – bunlarsa mənə bir şüşə süd gətirdilər!

Cənab Batton oğlunun yanındakı stula çöküb əlləri ilə üzünü örtdü:

– İlahi! – dəhşət içərisində öz-özünə deyindi. – Camaat nə deyəcək? İndi mən neyləyim?

– Onu evə aparmalı olacaqsınız, – tibb bacısı təkid etdi. – Özü də elə bu saat!

Əzabkeş kişinin gözləri qarşısına dəhşətli bir aydınlıqla gülünc mənzərə gəldi: o, yanındakı bu qorxunc məxluqla şəhərin izdihamlı küçələri ilə gedir.

– Bunu eləyə bilmərəm. Mümkün deyil, – inildədi.

Adamlar ayaq saxlayıb hal-əhval tutmaq istəyəcəklər. Onları necə başa salacaq? Bunu – bu yetmiş yaşlı kişini təqdim edib: “Bu mənim oğlumdur, bu gün səhər anadan olub”, – deyəcək? Sonra da qoca adyalının ətəklərini yığacaq və birlikdə asta-asta haylı-küylü dükanların, qul bazarının (ani, bir dəqiqə ərzində cənab Battonun ürəyindən dəlicəsinə bir arzu keçdi: kaş oğlu zənci olaydı), yaşayış məhəllələrindəki dəbdəbəli imarətlərin, qocalar evinin yanından ötüb gedəcəklər...

– Bəsdir! Özünüzü ələ alın, – tibb bacısı əmrlə dedi.

– Bura baxın, – qoca danışdı, – mənim evə bu adyalla gedəcəyimi düşünürsünüzsə, səhv eləyirsiniz.

– Körpələr həmişə adyala bükülürlər.

Qoca hirslə xışıltı salaraq kiçik, ağ bələk əskisini göstərdi:

– Baxın! – səsi titrəyə-titrəyə dedi. – Mənə verdikləri budur.

– Körpələr həmişə belə geyinirlər, – tibb bacısı zabitəli səslə bildirdi.

– Yaxşı, – qoca dedi, – onda bu uşaq iki dəqiqə sonra lüt olacaq. Bu adyal bədənimi dalayır. Heç olmasa mənə döşəkağı verə bilərdilər.